ədalət.- 2021.- 18 may.- S.5.

# Müəllimlik onun alın yazısı, Tanrı payıdır



**dir: "Mən dünyada müəllimdən şərəfli ad tanımıram". Əslində bu şərəfli peşə sirdir, ovsundur, hər kəsə qəlbini açmaz. Talehini müəllimliklə bağlayanlar bunu yaxşı bilirlər. Müəllimlik peşəsini seçməklə iş bitmir. Müəllim əməyinin xalqının gələcək talehi ilə bir başa bağlı olduğunu bu peşəni seçən insanlar dəqiqliklə bilməlidirlər. Bir də müəllim olanın mütləq Uca Tanrıdan bir payı, "taleh naxışı" olmalıdır. Elə ilk baxışdan üzündəki peyğəmbər nurundan, səliqə-səhmanından, nəzakət və mehribanlığından, birmənalı olaraq qəbul etməlisən ki, bu insan Müəllimdir-bizim İsa müəllim kimi.**

İsa müəllim üçün müəllimlik peşəsi Tanrı payıdır. Saatlı rayonunun Fətəli kənd orta məktəbində riyaziyyat-fizika müəllimi kimi işə başlayan İsa İsmayılov 1974-cü ildən talehini Pedaqoji institutla bağlayır. Daha sonra burada fəaliyyətini laborant, laboratoriya müdiri, "Fizikanın tədrisi metodikası" kafedrasının müəllimi kimi davam etdirir. Daima fizika tədrisinin effektliyini yüksəltmək üçün yollar axtarır, bu məsələdə dövrün tələblərini nəzərə alaraq, proqramlaşdırılmış materiallardan istifadə problemlərini gündəmə gətirir. Axtarışlarının nəticələrini sistemləşdirərək İsa Namaz oğlu İsmayılov "Orta məktəbdə fizika tədrisinin effektliyini yüksəltmək üçün texniki vasitələrdən və proqramlaşdırılmış materiallardan kompleks istifadə problemləri" mövzusunda (elmi rəhbər p.e.d. prof İ.İ.Tixonov) 1980-ci ildə namizədlik dissertasiyasını müdafiə edir. O, proqramlaşdırılmış materialların müxtəlif formalarından istifadə etməklə fizikanın tədrisini optimallaşdırmaq üçün aparılan işlərin içərisində şagirdlərin adi dərsliklərdən asılı olmadan sərbəst fəaliyyətlərinə imkan verən öyrədici proqramlardan istifadə etmələrinin daha effektli olduğunu sübuta yetirir. Bununla bağlı fizikanın öyrədilməsi prosesində proqramlaşdırılmış materialların müxtəlif formalarından istifadə etməklə fizikanın tədrisinin optimallaşdırılması ilə bağlı bir sıra maraqlı və səmərəli təkliflər verir.

20-ci əsrin sonunda informasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə öz hökmünü diktə etməyə başladı. Dünya ölkələrinin bir çoxu informasiya texnologiyalarından səmərəli istifadə nəticəsində sürətlə dəyişməyə və inkişaf etməyə başlayır. Dünyada qloballaşma sürətlənir, məsafədən asılı olmayaraq informasiya mübadiləsinə imkan yaranır və bunun özəyini internetin yaranması təşkil edir. İnformasiya texnologiyalarının əhatə dairəsi, xidmət sahələri sürətlə artaraq informasiyalı cəmiyyətin yaranmasına şərait yaratdı. Belə bir dövrdə Azərbaycanda da informasiya texnalogiyalarının təlim prosesinə gətirilməsi vacib məsələlərdən birinə çevrildi. Bu önəmli məsələlərin vacibliyini uzaqgörənliklə hiss edən, uzun illərdir ki, fizika təlimində yeni informasiya texnologiyalarının tiv fəaliyyətini və şagirdlərin müstəqil fəaliyyətini təmin edən fərziyyələri irəli sürdü, onları həyata keçirdi.

***Professor İsa İsmayılovun bu sahədə apardığı fundamental tədqiqatlar nəticəsində ümumtəhsil məktəblərində fizika təlimində informasiya texnologiyalarınnın tətbiqinin nəzəri və praktik problemlərinin həlli elmi mərkəzi-məktəbi formalaşdı. Bu gün "Fizika təliminin nəzəriyyəsi və metodikası" elminin əsas problemi olan yeniləşən və çoxalan informasiya texnologiyalarınnın fizikanın təliminə gətirilməsi, eləcə də gənc müəllimlərin faydalı pedaqoji fəaliyyətə hazırlanması proseslərinin informasiyalaşdırılması kimi məsələlər bu mərkəzin əsas tədqiqat obyekti olaraq qalmaqdadır.***

İsa müəllimin gözəl keyfiyyətlərindən biri də bütün zamanlarda zəhmətdən qorxmaması, gecə-gündüz yorulmadan çalışması, tədqiqatlar aparmasıdır. Bu gün də professor İsa Namaz oğlu Uca Tanrıdan ona bəxş olunan ömrünü alim-müəllim olmaqda, yazıb-yaratmaqda, dövlətinə və millətinə şərəflə xidmət etməkdə görür. Onun bir çox ölkələrin, eləcə də respublikamızın aparıcı elmi jurnallarında çap olunmuş 200-dən artıq məqalə, elmi-metodik vəsait, dərslik və dərs vəsaiti, monoqrafiya və kitabları-əsərləri pedaqogika elminin və təhsilin inkişafına ləyaqətlə xidmət göstərir. Fizika müəllimliyi peşəsini seçən gənclərimiz onu tanımazdan əvvəl, ilk növbədə onun əsərləri ilə tanış olurlar. Bu gün elm aləmində İsa müəllim yolunu uğurla davam etdirənlərin sayı onlarladır.

Qayğıkeşliyi, səmimi və təbiiliyi ilə hər kəsi heyran edən, professor İsa İsmayılovla dost-yoldaş olmağın özü şərəfdir. Gözəl qəlbi, etibarlı yoldaşlığı var. Haqq yolunun vurğunu, həm də onu qoruyan bir Allah adamıdır. Türk şairi, ozanı Yunus Əmrə demişkən "Yunus ilə yoldaş olsun gəlsün Allahuna gedən..."

***Bir haşiyə:*** Uzun illərdir ki, elmlər doktorluğu ilə bağlı dissertasiyam AAK-da yatıb qalmışdı. Dostlardan biri xəbər verdi ki, sənin işini professor İsa İsmayılova ekspert rəyinə veriblər, tanıyırsanmı? Mən heç nə demədim. Üstündən müəyyən bir vaxt keçəndən sonra yenə həmin adam zəng edərək söylədi ki, İsa müəllim Ekspert Şurasında səni möhkəm müdafiə etdi. Mən də ona cavab olaraq sadəcə çox sağ olsun dedim. Amma əslinə qalanda mənim doktorluq dissertasiyamda İsa müəllimin ustad dərsi, bəzi məsləhətləri zamanında öz əksini tapmışdır. Sonradan elə oldu ki, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Fəlsəfə, pedaqogika, psixologiya və fənlərin tədrisi metodikası" üzrə ekspert şurasının bir neçə il birlikdə üzvü olduq. Əbu Turxan deyir: "Allahı sevməyin yolu onun yaratdıqlarını sevməkdən keçir". Bu baxımdan müzakirələr zamanı İsa müəllimin elm aləminə qədəm qoyanlara hər dəfə göstərdiyi diqqət və qayğı əsl ziyalılıq nümunəsi, ustad dərsi idi. Doğma Azərbaycanımıza, alim-müəllim peşəsinə olan sonsuz məhəbbəti İsa müəllimi şərəf və ləyaqətin ucalığına yüksəltdi, minlərlə müəllim və tələbələrin məhəbbətini qazandırdı, doğmasına çevrilə bildi.

**Dəyərli Vətənoğlu, hörmətli professor İsa Namaz oğlu, Sərəfli ömrünüzün arxada qalan illərinə alqış deyərək, həyatınızın müdriklik-ağsaqqallıq, nəvəli-babalı-dədəli bir çağına qədəm qoymağınız münasibətilə Sizi, ailənizi, bütün İsasevənləri salamlayır, təbriklərə qoşulur, sevincimi bölüşərək daha böyük uğurlar diləyirəm. Allah qorusun.**

**Vidadi Ömər oğlu Orucov**
**Pedaqogika üzrə elmlər doktoru**